# أركان الإيمان

# İMANIN RÜKUNLARI

أرْكَانُ الإِيمَانِ

1. الإيمانُ باللَّه تعالى — Allaha
2. الإيمانُ بالملائكة عليهم السلام — Mələklərə
3. الإيمانُ بالكُتُبِ — Kiatablara
4. الإيمانُ بالرُّسل عليهم الصلاة والسلام — Peyğəmbərlərə
5. الإيمانُ باليوم الآخرِ — Axirət gününə
6. الإيمانُ بالقدرِ خيرِه وشرِّه — Qədərə iman


## Şeyx
## Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri

Tərcümə edən: İlqar Eyvazoğlu


Azərbaycan dili

اللغة الأذرية


ALSARHAAN.COM

MAHADSUNNAH.COM

# İMANIN RÜKUNLARI ( 1 )
## ALLAHA İMAN

**Hər canlının təbiəti, hisslərin sübutu və ağılın əlamətləri səmimi şəkildə şahidlik edir ki, bu kainatın ibadətə layiq və ona iman etmək vacib olan hikmətli bir Yaradanı var.**

**Allaha dəlil var hər hərəkətdə**
**Ona dəlil vardır hər sükunətdə**
**Hər bir şeydə nişanəsi var Onun**
**Dəlilidir Onun tək olduğunun**

Uca Allaha iman isə üsulların mənşəyi və ən böyük vəzifədir.

Peyğəmbərdən ﷺ soruşdular ki: “Hansı əməl daha yaxşıdır?” O, “ Allaha iman” dedi.[1]

**Allaha iman dörd rükunla əldə edilir:**

1. Allahın varlığına iman
2. Onun rububiyyətinə iman
3. Onun uluhiyyətinə iman
4. Onun ad və sifətlərinə iman

- Allahın varlığı aydın və açıq-aşkardır. Buna fitrət, hiss və ağıl dəlalət edir. Kainatdakı hər şey buna şahidlik edir.

[1] Muslim /161

Uca Allah buyurur:

قال تعالى: ﴿أَمۡ خُلِقُواْ مِنۡ غَيۡرِ شَيۡءٍ أَمۡ هُمُ ٱلۡخَٰلِقُونَ ٣٥ أَمۡ خَلَقُواْ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضَۚ بَل لَّا يُوقِنُونَ ٣٦﴾ [الطُّور: ٣٥ - ٣٦]

**“Bəlkə onlar öz-özünə yaranıblar? Yaxud onlar yaradanlardır? Yoxsa onlar göyləri və yeri yaradıblar? Xeyr, onlar qətiyyən inanmırlar.”[2]**

- Allahın Rububiyyətinə imanı əldə etmək, Onun rəbb, yaradan və ruzi verən olmasına, bütün sahiblik və idarəçiliyin onda olduğuna etiqad etməklə olur.

Hərəkətdə olan onun izni olmadan hərəkət edə bilməz, yerində duran onun əmri olmadan yerində dura bilməz.

Uca Allah buyurur:

قال تعالى: ﴿قُلۡ مَن يَرۡزُقُكُم مِّنَ ٱلسَّمَآءِ وَٱلۡأَرۡضِ أَمَّن يَمۡلِكُ ٱلسَّمۡعَ وَٱلۡأَبۡصَٰرَ وَمَن يُخۡرِجُ ٱلۡحَيَّ مِنَ ٱلۡمَيِّتِ وَيُخۡرِجُ ٱلۡمَيِّتَ مِنَ ٱلۡحَيِّ وَمَن يُدَبِّرُ ٱلۡأَمۡرَۚ فَسَيَقُولُونَ ٱللَّهُۚ فَقُلۡ أَفَلَا تَتَّقُونَ ٣١﴾ [يُونُس: ٣١]

---

[2] Tur surəsi, 35,36-cı ayələr

**De: “Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?” Onlar deyəcəklər: “Allah!” De: “Bəs (belə olduğu halda) (Allahdan) qorxmursunuz?”**[3]

- Uca Allahın uluhiyyətinə imanın əldə etmək, Ondan başqa ibadətə layiq məbud olmadığına etiqad etməklə olur.

İbadəti ondan başqasına sərf etməmək və savabını da yalnız Ondan istəməklə olur.

Uca Allah buyurur:

قال تعالى: ﴿قُلۡ إِنَّ صَلَاتِي وَنُسُكِي وَمَحۡيَايَ وَمَمَاتِي لِلَّهِ رَبِّ ٱلۡعَٰلَمِينَ ١٦٢ لَا شَرِيكَ لَهُۥۖ وَبِذَٰلِكَ أُمِرۡتُ وَأَنَا۠ أَوَّلُ ٱلۡمُسۡلِمِينَ ١٦٣﴾ [الأنعام : ١٦٢ - ١٦٣]

**De:“Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allaha məxsusdur! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanların birincisiyəm”.**[4]

- Allahın ad və sifətlərinə imanı isə, Onu hər bir naqislik və eyibdən tənzih etməklə əldə etmək olur.

---

[3] Yunus surəsi, 31-ci ayələr
[4] Ənam surəsi, 162,163-cü ayələr

Uca Allahın Öz Kitabında və ya Peyğəmbərinin ﷺ sünnəsində, Özünə təsdiq etdiyi gözəl ad və uca sifətləri dəyişdirmədən və inkar etmədən eləcə də keyfiyyət vermədən və bənzətmədən təsdiq etməklə olur.

Uca Allah buyurub:

قال تعالى: ﴿وَلِلَّهِ ٱلۡأَسۡمَآءُ ٱلۡحُسۡنَىٰ فَٱدۡعُوهُ بِهَاۖ وَذَرُواْ ٱلَّذِينَ يُلۡحِدُونَ فِيٓ أَسۡمَٰٓئِهِۦۚ سَيُجۡزَوۡنَ مَا كَانُواْ يَعۡمَلُونَ ١٨٠﴾ [الأَعۡرَاف : ١٨٠]

**“Ən gözəl adlar Allahındır. Ona bu adlar vasitəsi ilə dua edin və Onun adları barəsində haqdan sapanları tərk edin. Onlar etdikləri əməllərin cəzasını alacaqlar.”[5]**

---

5 Əraf surəsi, 180-ci ayə

# İMANIN RÜKUNLARI ( 2 )
## MƏLƏKLƏRƏ İMAN

Mələklər Allahın qullarından olan bir varlıqdırlar. Uca Allah onları nurdan yaratmışdır. Allah onları özünə ibadət və itaət etmələri üçün yaratmışdır.

Onlar Ona həmd ilə zikr edir və Onun əmrlərinə itaət edirlər.

Uca Allah buyurur:

قال تعالى: ﴿لَّا يَعۡصُونَ ٱللَّهَ مَآ أَمَرَهُمۡ وَيَفۡعَلُونَ مَا يُؤۡمَرُونَ ٦﴾ [التَّحۡرِيم : ٦]

“Allahın onlara verdiyi əmrlərə (heç vaxt) asi olmaz, özlərinə buyurulanları yerinə yetirərlər.”[6]

Onlar çoxlu məxluqlardır ki, onların sayını yalnız Allah bilir.

Mələklərə iman etiqadın əsaslarından biridir ki, onsuz iman tamamlanmaz.

Mələklərə iman özündə dörd şeyi ehtiva edir:

1- Onların varlığını və onların Allahın tabe edilmiş bir məxluq olduğunu qəti şəkildə təsdiq etmək.
2- Cəbryıl, Mikayıl, İsrafil və başqa mələklər (Allahın onlara salamı olsun) kimi, adları bilinənlərin adına iman etmək.
3- Vəsfləri bilinənlərin vəsflərinə iman etmək. Necəki Cəbrayıll (Allahın ona salamı olsun) vəsfində deyildiyi

[6] ət-Təhrim surəsi, 6-cı ayə

kimi: “Onun altı yüz qanadı var ki, onunla üfüqü örtmüşdü”.[7]

4- Əməllərindən bilinən əməlinə iman etmək.

Bunlar:

— Cəbrayıla (Allahın ona salamı olsun) vəhy gətirmək həvalə olunub.
— Ölüm mələyinə canları almaq həvalə olunub.
— İsrafilə sura üfürmək həvalə olunub.
— Mikayıla yağış həvalə olunub.
— Onların arasında bəndəni evində, səfərində və hər şəraitdə himayəsinə həvalə edilmiş mələklər vardır. Onlar daim bəndənin yanındadırlar.

Onlar barəsində uca Allah buyurur:

قال تعالى: ﴿لَهُۥ مُعَقِّبَٰتٌ مِّنۢ بَيۡنِ يَدَيۡهِ وَمِنۡ خَلۡفِهِۦ يَحۡفَظُونَهُۥ مِنۡ أَمۡرِ ٱللَّهِ﴾ [الرَّعۡد : ١١]

“Allahın əmri ilə insanın həm önündə, həm də arxasında daim onunla birlikdə olub onu qoruyan mələklər vardır.”[8]

— Mələklərdən eləsi var ki, onlara ərşi daşımaq həvalə olunub
— Mələklərdən eləsi var ki, onlar Məamur[9] evinin ziyarətçiləridirlər.

Peyğəmbər ﷺ buyurub:

---

[7] Buxari və Muslim
[8] ər-Rad surəsi, 11-ci ayə
[9] Səmada olan məscidin adı

“Məni Məamur evinə qaldırdılar. Cəbrayıldan bu ev barəsində soruşdum. O dedi: Bu Məamur evidir. Burada hər gün yetmiş min mələk namaz qılar. Oradan çıxarlarsa son anlarına kimi ora qayıdmazlar”.[10]

— Mələklərdən kəramətli olan əməlləri yazanlar da var. Onlara bəndənin əməllərini qorumaq və onun etdiyi yaxşı və ya pis əməllərini yazmaq tapşırılıb.

Odur ki, mələklərə olan imanınızı bütün nöqsanlardan uzaq olmasına diqqət yetirin.

Kim Allahın mələklərindən birinə düşmənçilik edərsə, Allahın düşməninə çevirilər.

Uca Allah buyurur:

قال تعالى: ﴿مَن كَانَ عَدُوًّا لِّلَّهِ وَمَلَٰٓئِكَتِهِۦ وَرُسُلِهِۦ وَجِبۡرِيلَ وَمِيكَىٰلَ فَإِنَّ ٱللَّهَ عَدُوٌّ لِّلۡكَٰفِرِينَ ٩٨﴾ [البَقَرَة : ٩٨]

“Kim Allaha, Onun mələk-lərinə və elçilərinə, Cəbrailə və Mikailə düşməndirsə, şübhəsiz ki, Allah da o kafirlərə düşməndir.”[11]

---

10 Buxari və Muslim

11 əl-Bəqərə surəsi, 98-ci ayə

# İMANIN RÜKUNLARI (3)
## KİTABLARA İMAN

**Rəbbimiz olan Allahı necə tanıya bilərik?**
**Onun bizə əmr etdiyi kimi ona necə ibadət edə bilərik?**
**Bizim getməyimizi istədiyi ən doğru yol hansıdır?**

Biz bütün bunları səmavi kitablar vasitəsilə bilirik. Bunlar, Uca Allahın Öz elçilərinə nazil etdiyi kəlamları ehtiva edən kitablar və səhifələrdir.

Səmavi kitablara iman imanın altı əsasından biridir

Uca Allah buyurur:

قال تعالى: ﴿يَـٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ ءَامِنُواْ بِٱللَّهِ وَرَسُولِهِۦ وَٱلْكِتَـٰبِ ٱلَّذِى نَزَّلَ عَلَىٰ رَسُولِهِۦ وَٱلْكِتَـٰبِ ٱلَّذِىٓ أَنزَلَ مِن قَبْلُ﴾ [النِّسَاء : ١٣٦]

"Ey iman gətirənlər! Allaha, Onun Elçisinə və Elçisinə nazil etdiyi Kitaba və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin!"[12]

Biz iman edirik ki, onların hamısı haqqdır və həqiqətdir. Onlar Uca Allahın kəlamlarıdır. Kimlərə nazil olubsa olanlar üçün orada hidayət, nur və kifayət edən hər bir şey var.[13]

Biz adları qeyd olunanlara, yəni Qurana, Tövrata, İncilə, Zəbura, İbrahim və Musanın səhifələrinə təfərrüatı ilə iman edirik.[14]

---

12 ən-Nisa surəsi, 136-cı ayə
13 Əl-İrşəd ilə Sahihul-Etiqad-173
14 İman, haqiqatuhu va xavarimuhu va nəvaqiduhu ində Əhlis-Sunnə vəl-Cəmaa-1/135

Qurani-Kərim bütün əvvəlki kitabları nəsx edir və onlara hökm edir.

Uca Allah buyurur:

قال تعالى: ﴿وَأَنزَلۡنَآ إِلَيۡكَ ٱلۡكِتَٰبَ بِٱلۡحَقِّ مُصَدِّقٗا لِّمَا بَيۡنَ يَدَيۡهِ مِنَ ٱلۡكِتَٰبِ وَمُهَيۡمِنًا عَلَيۡهِ﴾

[المَائـِدَة : ٤٨]

"Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən Kitabı haqq olaraq nazil etdik."[15]

O kitablarda olan əhkamlardan yalnız səhih olanlarına və Quranın təsdiq etdiklərinə əməl etmək olar. Çünki o kitablarda təhrif və dəyişikliklər var.

Amma Quranın qorunmasına isə Allah zamin durub.

Uca Allah buyurur:

قال تعالى: ﴿إِنَّا نَحۡنُ نَزَّلۡنَا ٱلذِّكۡرَ وَإِنَّا لَهُۥ لَحَٰفِظُونَ ٩﴾ [الحِجْر : ٩]

"Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq."[16]

Kitablara imanın bəhrələri vardır:

Allahın qullarına göstədiyi qayğıya görə Allaha şükr etmək. Beləki Allah hər bir qövmə onları doğru yola yönəldən kitab göndərib. Eləcə də bunda olan hikməti bilmək.[17]

---

[15] əl-Maidə surəsi, 48-ci ayə

[16] əl-Hicr surəsi, 9-cu ayə

Qurani-Kərimə imanın bəhrələrindən biri də tilavət edərək, öyrənərək, əməl edib və mənalarını düşünərək ona qayğı göstərməkdir.

Çünki o, açıq-aydın nur, doğru yol, öyüd-nəsihət, xatırlama və sinələrdə olanlara şəfadır.

Uca Allah buyurur:

قال تعالى: ﴿كِتَٰبٌ أَنزَلۡنَٰهُ إِلَيۡكَ مُبَٰرَكٞ لِّيَدَّبَّرُوٓاْ ءَايَٰتِهِۦ وَلِيَتَذَكَّرَ أُوْلُواْ ٱلۡأَلۡبَٰبِ ٢٩﴾

"(Bu) mübarək Kitabı, (insanların) onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün sənə nazil etdik."[18]

---

17 Əqidətul əhli sunnə val Camaa libni Useymin 28
18 Sad surəsi, 29-cu ayə

# İMANIN RÜKUNLARI ( 4 )
## PEYĞƏMBƏRLƏRƏ İMAN

Uca Allah buyurur:

قال تعالى: ﴿لَقَدۡ مَنَّ ٱللَّهُ عَلَى ٱلۡمُؤۡمِنِينَ إِذۡ بَعَثَ فِيهِمۡ رَسُولٗا مِّنۡ أَنفُسِهِمۡ يَتۡلُواْ عَلَيۡهِمۡ ءَايَٰتِهِۦ وَيُزَكِّيهِمۡ وَيُعَلِّمُهُمُ ٱلۡكِتَٰبَ وَٱلۡحِكۡمَةَ وَإِن كَانُواْ مِن قَبۡلُ لَفِي ضَلَٰلٖ مُّبِينٍ ١٦٤﴾ [آل عِمۡرَان : ١٦٤]

“Allah möminlərə, öz aralarından onlara (Allahın) ayələrini oxuyan, onları (günahlardan) təmizləyən, onlara Kitabı və Hikməti (Sünnəni) öyrədən bir Elçi göndərməklə mərhəmət göstərmişdir. Halbuki əvvəllər onlar açıq-aydın azğınlıqda idilər.”[19]

Pyğəmbərlərə iman İmanın rükunlarından biri və vacib etiqadın ən vaciblərindəndir.

Peyğəmbərlər Allahın risalətini çatdıran və Onun məxluqlar üzərində hüccətini qaldıran şəxslərdir.

Peyğəmbərlərin göndərilməsi məxluqata olan ən əzəmətli nemətlərdəndir. Xüsusi ilə elçilərin ən fəzilətlisi və peyğəmbərlərin sonuncusu olan Muhəmməd ﷺ peyğəmbər.

Peyğəmbərlərə iman bu şeyləri gərəkdirir:

- Uca Allahın hər bir ümmətə öz içindən bir elçi göndərdiyinə, onları Allaha ibadət etməyə və Ondan

[19] Ali İmran surəsi, 164-cü ayə

başqa ibadət edilənləri inkar etməyə çağırdığını təsdiq etmək.

- Onların hamısının doğru danışdıqlarına və Allahın onlara göndərdiyi hər şeyi çatdırdıqlarına, gizlətmədikləri və dəyişdirmədiklərinə etiqad etmək.
- Onların hamısının tövhidə dəvət etdiklərinə iman etmək

Uca Allah buyurur:

قال تعالى: ﴿وَمَآ أَرۡسَلۡنَا مِن قَبۡلِكَ مِن رَّسُولٍ إِلَّا نُوحِيٓ إِلَيۡهِ أَنَّهُۥ لَآ إِلَٰهَ إِلَّآ أَنَا۠ فَٱعۡبُدُونِ ۝٢٥﴾ [الأنبياء : ٢٥]

“Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: “Məndən başqa ibadətə layiq heç bir ilah yoxdur, Mənə ibadət edin!”– deyə vəhy etməyək.”[20]

Amma onların şəriət və əhkamları fərqli olub.

Uca Allah buyurur:

قال تعالى: ﴿لِكُلّٖ جَعَلۡنَا مِنكُمۡ شِرۡعَةٗ وَمِنۡهَاجٗا﴾ [المائدة : ٤٨]

“Sizlərdən hər biriniz üçün bir şəriət və bir yol təyin etdik.”[21]

- Onlardan birinin risalətini inkar edənin hamısının risalətini inkar etməsinə etiqad etmək.

Uca Allah buyurur:

---

[20] əl-Ənbiya surəsi, 25-ci ayə
[21] əl-Maidə surəsi, 48-ci ayə

قال تعالى: ﴿كَذَّبَتۡ قَوۡمُ نُوحٍ ٱلۡمُرۡسَلِينَ ١٠٥﴾ [الشُّعَرَاء : ١٠٥]

“Nuh tayfası da elçiləri yalançı saydı.”[22]

Allah onları bütün elçiləri yalançı saydıqlarını dedi, halbuki yalançı saydıqları zaman Ondan (Nuhdan) başqa elçi yox idi.

- Allahın onları heyrətli möcüzələrlə və aşkar dəlillərlə dəstəklədiyinə iman etmək.
- Onlar haqqında gələn səhih xəbərləri təsdiq etmək.
- Peyğəmbərimiz Muhəmmədin sonuncu peyğəmbər olmasına ondan sonra heç bir peyğəmbərin olmamasına iman etmək.

Uca Allah buyurur:

قال تعالى: ﴿مَّا كَانَ مُحَمَّدٌ أَبَآ أَحَدٖ مِّن رِّجَالِكُمۡ وَلَٰكِن رَّسُولَ ٱللَّهِ وَخَاتَمَ ٱلنَّبِيِّـۧنَۗ وَكَانَ ٱللَّهُ بِكُلِّ شَيۡءٍ عَلِيمٗا ٤٠﴾ [الأَحۡزَاب : ٤٠]

“Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir.”[23]

- Onların Allah yanında məqamlarının bir-birindən fəzilətli olmasına və onların ən fəzilətlisinin Muhəmməd ﷺ olduğuna etiqad etmək.

---

[22] əş-Şuəra surəsi, 105-ci ayə
[23] əl-Əhzab surəsi, 40-cı ayə

Elçilərə imanın böyük bəhrələri vardır. Bunlar:

- Uca Allahın bəndəsinə olan rəhmətini və qayğısını bilmək, çünki o kəramətli peyğəmbərləri onlara hidayət və doğru yolu göstərmək üçün göndərmişdir.
- Bu böyük nemətə görə Allaha şükr etmək.
- Peyğəmbərləri sevmək, onlara ehtiram göstərmək və onlara layiq olduğu şəkildə təriflər söyləmək. Çünki onlar uca Allahın elçiləri və onun seçilmiş bəndələridirlər.
- Uca Allahın qüdrətini və Onun yaratdıqlarının bəzilərini seçdiyini və bəzilərini digərlərindən üstün tutduğunu bilmək.
- Onların gətirdiklərindən yapışmaq dünya və axirət səadətinə aparan yoldur.

# İMANIN RÜKUNLARI ( 5 )
## AXİRƏT GÜNÜNƏ İMAN

**Axirət gününə iman, imanın rükunlarından biridir.**

Uca Allah öz kitabında on doqquz yerdə axirət gününə imanı Allaha imanla bir yerdə gətirir. Və O, təkidlə bu günün qaçılmaz bir reallıq olduğunu və bundan qaçış və qurtuluşun olmadığını vurğulayıb.

Uca Allah buyurur:

قال تعالى: ﴿ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَۚ لَيَجۡمَعَنَّكُمۡ إِلَىٰ يَوۡمِ ٱلۡقِيَٰمَةِ لَا رَيۡبَ فِيهِۗ وَمَنۡ أَصۡدَقُ مِنَ ٱللَّهِ حَدِيثٗا ٨٧﴾ [النِّسَاء : ٨٧]

“Özündən başqa ibadətə layiq ilah olmayan Allah, (baş verəcəyinə) şübhə edilməyən Qiyamət günü sizi mütləq( bir yerə) toplayacaqdır. (Verdiyi) xəbərdə Allahdan daha doğru (söyləyən) kim ola bilər?”[24]

Qiyamət gününə imanın mənası: Allahın Öz Kitabında və Rəsulun ﷺ hədislərində bizə bildirdiyi hər şeyin ölümdən sonra gerçəkləşəcəyinə möhkəm iman etmək və bu etiqada uyğun əməl etməkdir.

Qiyamət gününə imana daxildir:

---

[24] ən-Nisa surəsi, 87-ci ayə

- Qiyamətin əlamətlərinə, ölümə, ölümdən sonra olanlara, qəbir sorğu-sualına, orda olan əzab və nemətlərə iman etmək.
- O gün sura üfürmək kimi şeylərə təfərruatlı iman etmək.
- Ölümdən sonra dirilməyə və ölümdən sonra həyata iman etmək.
- Məxluqların bir yerdə toplanmasına və onların ordakı halına iman etmək.
- Uca Allahla görüşməyə, insanların üzləşməsinə, hesaba çəkilməsinə, məzlumun zalımdan qisas almasına iman etmək.
- Əməl dəftərlərinin üzə çıxacağına, bəzilərinin kitabı sağ əlinə bəzilərinin kitabı isə sol əlinə veriləcəyinə iman etmək.
- Tərəziyə, sirat körpüsünə, Peyğəmbərimizin hovuzuna, şəfaətə, cənnət və cəhənnəmə iman etmək.

Əgər bu iman bəndənin qəlbində yaranarsa, böyük bəhrələr verər, bunlar:

- Qiyamət gününün savabını ümid edərək yaxşı işlər görmək və onlara həvəs göstərmək istəyi yaranar.
- Qiyamət gününün əzabından qorxaraq günah işləmək və ya günaha razı olmaq qorxusu yaranar.
- Mömininin dünya həyatında itirdiyi nemətlərin axirətdə nemət və mükafatla əvəz olunacağına ümid edərək təsəlli tapması yaranar.

- Axirətə iman möminin ruhuna və hisslərinə hüzur və rahatlıq gətirir, onu narahatlıq, narazılıq və ümidsizlikdən uzaqlaşdırır.
- Axirətə iman əxlaqi dəyərlərin qoruyucusu və dünya ləzzətləri uğrunda çılğın mübarizəyə tələsməyin qarşısında maneədir.

**Əgər bəndə bilirsə ki, şübhəsiz o gün gələcək, o zaman qollarını çırmalayıb hazırlaşmalıdır.**

Uca Allah buyurur:

قال تعالى: ﴿يَـٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ ٱتَّقُوا۟ ٱللَّهَ وَلْتَنظُرْ نَفْسٌ مَّا قَدَّمَتْ لِغَدٍ ۖ وَٱتَّقُوا۟ ٱللَّهَ ۚ إِنَّ ٱللَّهَ خَبِيرٌۢ بِمَا تَعْمَلُونَ ۝١٨﴾ [الحَشر : ١٨]

“Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabahı üçün nə etdiyinə baxsın. Allahdan qorxun! Həqiqətən, Allah nə etdiklərinizdən xəbərdardır.”[25]

---

[25] əl-Həşr surəsi, 18-ci ayə

# İMANIN RÜKUNLARI ( 6 )
## QƏDƏRƏ İMAN

**İmanın dirəkləri vardır ki, onun üzərində dayanır və onlarsız iman səhih olmur.**

Bunlardan biri də Qədərə imandır.

Qədərə iman, Uca Allahın kainatda baş verən hər şeyi Öz əzəli elminə və hikmətinin tələbinə görə təqdir etməsidir.[26]

Qədərə imanın bir neçə mərtəbəsi var. Bunlar:

- Allahın əzəli elminə, Onun hər şeyi elmlə əhatə etdiyinə, nə olub, nə olur, nə olacağını, ümumi və təfərrüatlı şəkildə bildiyinə iman etmək.

Uca Allah buyurur:

قال تعالى: ﴿إِنَّ ٱللَّهَ بِكُلِّ شَيۡءٍ عَلِيمُۢ ٧٥﴾ [الأنفال : ٧٥]

“Həqiqətən, Allah hər şeyi bilir.”[27]

Onun elmi yenilənməz (cahillik qarışa bilməz), elmdən sonra heç bir unutqanlıq da baş verə bilməz.[28]

- Qədərə imandan biri də, Yazıya iman etməkdir. Biz iman edirik ki, Allah məxluqların qədərini əzəli eiminə

---

[26] Əqidətul əhli sunnə val Camaa libni Useymin 27
[27] əl-Ənfal surəsi, 75-ci ayə
[28] Əqidətul əhli sunnə val Camaa libni Useymin 27

dayanaraq Lövhi-məhfuzda yazmışdır. Qiyamətə qədər baş verib keçənlər, baş verənlər, baş verəcək hər şey Allah yanında yazılıb.

Uca Allah buyurur:

قال تعالى: ﴿وَكُلَّ شَيۡءٍ أَحۡصَيۡنَٰهُ فِيٓ إِمَامٖ مُّبِينٖ ١٢﴾ [يس : ١٢]

Biz hər şeyi açıq-aydın Yazıda (Lövhi-məhfuzda) qeydə almışıq.( Ya sin surəsi, 12-ci ayə)

Hədisdə Peyğəmbər ﷺ buyurub:

"Allah ilk olaraq qələmi yaratdı və ona "yaz" dedi və o, sonsusa qədər baş verəcəkləri yazdı."[29]

- Qədərə iman arasında iradə və istəyə iman da var. Biz iman edirik ki, bu kainatda baş verənlər Allahın iradəsi və istəyi ilədir. Allah nəyi istəyərsə o olar və nəyi istəməzsə o olmaz

Ondan etdiyi işlər barəsində (hikmət və səltənətinin mükəmməlliyinə görə) soruşulmur , əksinə insanlar etdiyi əməllərə görə soruşulur.[30]

---

29 Abu Davud 4700. Tirmizi 3319

30 Əqidətul əhli sunnə val Camaa libni Useymin 28

- Qədərə iman arasında yaradılışa və icad etməyə iman da var. Biz iman edirik ki, Allah hər şeyin yaradıcısıdır. Ondan başqa heç bir yaradan və Ondan başqa heç bir Rəbb yoxdur. Ondan başqa hər şey yaradılmışdır. O, hər bir işçinin, onun işinin, hər hərəkət edən və onun hərəkətinin yaradıcısıdır.

Uca Allah buyurur:

قال تعالى: ﴿ٱللَّهُ خَٰلِقُ كُلِّ شَيۡءٖۖ وَهُوَ عَلَىٰ كُلِّ شَيۡءٖ وَكِيلٞ ٦٢﴾ [الزُّمَر : ٦٢]

“Allah hər şeyin Xaliqidir. O, hər şeyi Qoruyandır.”[31]

- Kim qədərə iman edərsə, Allaha təvəkkül edər və Ona tərəf dönər. Xeyirin hamısı Allahın yanındadır.
- Qədərə iman edən şəxs şəriətdə icazəli səbəblərdən də yapışar. Çünki bu özü də qədərdəndir. Səbəblərə fikir verməmək ağılın naqisliyi, səbəblərə təvəkkül etmək isə tövhiddə naqislikdir.[32]
- Kim qədərə iman edərsə, onun nəfsi, bunların qədər olduğunu bildiyi üçün təskinlik tapar və müsibətlər anında səbir edər.

---

[31] əz-Zumər surəsi, 62-ci ayə
[32] Məcmu fətava 8/70

Uca Allah buyurur:

قال تعالى: ﴿مَآ أَصَابَ مِن مُّصِيبَةٖ فِي ٱلۡأَرۡضِ وَلَا فِيٓ أَنفُسِكُمۡ إِلَّا فِي كِتَٰبٖ مِّن قَبۡلِ أَن نَّبۡرَأَهَآۚ إِنَّ ذَٰلِكَ عَلَى ٱللَّهِ يَسِيرٞ ٢٢ لِّكَيۡلَا تَأۡسَوۡاْ عَلَىٰ مَا فَاتَكُمۡ وَلَا تَفۡرَحُواْ بِمَآ ءَاتَىٰكُمۡۗ وَٱللَّهُ لَا يُحِبُّ كُلَّ مُخۡتَالٖ فَخُورٍ ٢٣﴾ [الحَدِيد : ٢٢ - ٢٣]

“Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Yazıda (müəyyənedilmiş)olmasın. Şübhəsiz ki, bu, Allah üçün çox asandır. (Allah bunu) əlinizdən çıxana kədərlənməyəsiniz və Onun sizə verdiyinə (həddindən artıq) sevinməyəsiniz deyə (belə izah edir). Allah heç bir özündən razını, özünü öyəni sevmir.”[33]

[33] əl-Hədid surəsi, 22-23-cü ayə